Gəncə Dövlət Universiteti

# BAKALAVRİAT VƏ MAGİSTRATURA SƏVİYYƏLƏRİNƏ QƏBUL OLUNMUŞ VƏ HAL-HAZIRDA TƏHSİL ALAN TƏLƏBƏLƏRİN ƏVVƏLKİ TƏHSİLİNİN VƏ KREDİTLƏRİNİN TANINMASI QAYDALARI

**Rektor: Y.Ə.Yusibov**
**GDU Elmi Şurasının 28.12. 2023-cü il tarixli iclasında (Pr. № 04) təsdiqlənmişdir.**

GƏNCƏ - 2023

**Gəncə Dövlət Universiteti üzrə bakalavriat və magistratura səviyyələrinə qəbul olunmuş və hal-hazırda təhsil alan tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması Qaydaları "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli № 348 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" və 20.05.2019-cu il tarixli, 230 saylı "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi" Qaydalarına, Gəncə Dövlət Universitetinin Nizamnaməsinə və digər normativ-hüquqi aktlara uyğun hazırlanaraq, Universitet Elmi Şurasının 28.12.2023-cü il tarixli (pr№ 04) iclasında müzakirə və təsdiq edilmişdir.**

**Universitetin bakalavriat və magistratura səviyyələrinə qəbul olunmuş və hal-hazırda təhsil alan tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması Qaydaları**

**1.Ümumi müddəalar.**

1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-1-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli № 348 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" və 20.05.2019-cu il tarixli, 230 saylı "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi" Qaydalarına əsasən hazırlanmışdır və bakalavriat və magistratura səviyyələrinə qəbul olunmuş və hal-hazırda təhsil alan tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması qaydalarını müəyyən edir.

1.2. Bu Qaydalarda istifadə olunan anlayışlar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında nəzərdə tutulan mənaları ifadə edir.

1.3. Bu Qaydalarda göstərilən şərtlərin Universitetin bütün fakültələri (şöbələri) və aidiyyatı strukturları tərəfindən icra olunması məcburi xarakter daşıyır.

**2. Əsas anlayışlar**

Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**təhsil krediti** – fənnin məzmununa və həcminə uyğun olaraq, onun mənimsənilməsinə ayrılan vaxtın ölçü vahididir;

**akademik transkript** - tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri (saatları) və qiymətləri (rəqəm və (və ya) hərflərlə) özündə əks etdirən (xaricdə təhsil alanlar üçün mövcud qaydada leqallaşdırılmış və Azərbaycan dilinə tərcümə olunmuş) sənəddir;

**diploma əlavə** - Avropa Komissiyası, Avropa Şurası və YUNESCO/CEPES-in ekspertlərindən ibarət işçi qrupu tərəfindən hazırlanmış Azərbaycan Respubliksında ali təhsil üzrə ixtisas dərəcəsini alan şəxs haqqında məlumatı, ixtisas dərəcəsi haqqında məlumatı, ixtisas dərəcəsinin səviyyəsi haqqında məlumatı, təhsilin məzmunu və alınan nəticələr haqqında məlumatı, ixtisas dərəcəsinin funksiyaları haqqında məlumatı, əlavə məlumatları, milli təhsil sistemi haqqında məlumatı, və diploma əlavənin təsdiqlənməsini əks etdirən sənəddir;

**akademik məsləhətçi (tyutor)** – ali təhsil müəssisələrində *və AMEA-da* tədris məsləhətçisidir;

**akademik mobillik** – tələbənin və professor-müəllim heyətinin ölkədaxili və xarici ölkələrin ali təhsil müəssisələrində *və AMEA-da* müvafiq olaraq sərbəst təhsil almaq və akademik fəaliyyət göstərmək hüququdur;

**Avropa Kredit Transfer Sistemi (AKTS)** – təhsil proqramı ilə müəyyən olunmuş kompetensiyalara nail olmaq üçün tələbənin iş yükünü və təhsilalma istiqamətini müəyyənləşdirən sistemdir. Bu sistem, həmçinin tələbələrin mobilliyini təmin edir və təhsil proqramlarının dövlətlərarası müqayisəsi və tanınması prosedurlarını asanlaşdırır;

**prerekvizit fənlər** – tədrisi ilk növbədə zəruri olan fənlərdir;

**fənlər üzrə qeydiyyat** – tələbələrin təhsil müəssisəsinin və AMEA-nın müəyyən etdiyi qaydada fənləri seçmə prosedurudur;

**Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG)** – tələbənin təhsil proqramını mənimsəmə səviyyəsinin göstəricisidir. ÜOMG tələbənin tədris fəaliyyətini fəallaşdırmaq, özünənəzarət mexanizmini yaratmaq, tədrisdə əldə etdiyi nailiyyətlərini qiymətləndirmək məqsədi ilə tətbiq edilir;

**akademik təqvim** – ali təhsil müəssisəsində və AMEA-da tədris ili üzrə nəzərdə tutulmuş tədbirləri özündə əks etdirən sənəddir;

**müvəffəqiyyətlə təhsil alan tələbə** - fərdi tədris planında qeyd olunan bütün fənlər üzrə müəyyən olunmuş kreditləri qazanan tələbədir;

**akademik borcu olan tələbə** - fərdi tədris planında qeyd olunan fənlərin ən azı birindən müəyyən olunmuş krediti qazana bilməyən tələbədir;

**tədrisə tam cəlb olunma (fulltime)** - ixtisasın təhsil proqramı ilə müəyyən olunmuş normativ təhsil müddətinə uyğun, tədris qrafiki ali təhsil müəssisəsi tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür;

**tədrisə qismən cəlb olunma (parttime)** - ixtisasın tədris planına uyğun, hər semestrdə iki fəndən az olmamaqla, tədris qrafiki tələbə tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür;

**cari qiymətləndirmə** - fənn üzrə tələbənin semestr müddətində fəaliyyətinin qiymətləndirilməsidir;

**aralıq qiymətləndirmə** - fənn üzrə tələbənin imtahan zamanı bilik və bacarıqlarının qiymətləndirilməsidir

**Subbakalavr** — orta ixtisas təhsili pilləsində məzunlara verilən peşə-ixtisas dərəcəsidir.

**Bakalavriat**- Bolonya prosesində iştirak edən ölkələrdə ali təhsil proqramının birinci pilləsini mənimsəyən şəxslərə verilən akademik dərəcə və ya ixtisaslaşma göstəricisi, bakalavriat səviyyəsinin bitirmiş şəxslərə verilən ali peşə-ixtisas dərəcəsi;

**Magistrutura -** ali təhsilin ikinci səviyyəsinin tələblərinə uyğun olaraq, yüksəkixtisaslı, sərbəst yaradıcılıq fəaliyyəti göstərə biləcək mütəxəssislərin hazırlığını təmin edən təhsil prosesidir, Magistratura səviyyəsinin bitirmiş şəxslərə verilən ali elmi ixtisas dərəcəsi;

## 3. Əvvəlki təhsilin və kreditlərin tanınması

Tələbə bir ali təhsil müəssisəsindən (ixtisasdan) digərinə köçürüldüyü, tələbələr sırasına bərpa olunduğu, akademik məzuniyyətdən qayıtdığı və təkrar ali təhsil aldığı hallarda, onun əvvəllər qazandığı kreditlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli № 348 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” 3.2.16-cı yarımbəndinin tələblərinə uyğun olaraq aşağıdakı qaydada nəzərə alınır:

3.1 Yerli və xarici ali təhsil müəssisələrində qazanılmış kreditlərin sayı ixtisas (ixtisaslaşma) üzrə azad olunması nəzərdə tutulan kreditlərin 30%-dən çox olmaması nəzərə alınır.

3.2 Təhsil alan əvvəl aldığı ixtisasın təhsil proqramında öyrənilmiş fənlərin məzmunu, yeni almaq istədiyi əlavə və ya köçürüldüyü ixtisasın təhsil proqramına daxil olan hər hansı fənnin məzmununa uyğun olduqda, həmçinin fərdi tədris planında seçmə və ali məktəb tərəfindən müəyyən edilən fənn blokları üzrə nəzərdə tutulan fənlərə aid kreditlər və fənnin məzmunu uyğun gəldikdə tədris məşğələlərindən və attestasiyadan azad olunur.

3.3 Subbakalavrın kreditlərinin tanınması prosedurunda ilkin təhsil proqramı ilə yenidən əldə ediləcək ixtisas üzrə bakalavriat təhsili proqramı arasındakı fərqin 1 tədris ilinə hesablanmış saatdan az və 2 tədris ilinə hesablanmış saatdan çox olmamasına diqqət yetirilir.

3.4 Təhsil müddəti subbakalavrın ilkin təhsil proqramı ilə onun təhsil almaq istədiyi müvafiq ixtisas üzrə bakalavriat təhsili proqramı arasındakı fərqə əsasən müəyyən edilir.

3.5 İlkin təhsil proqramı ilə yenidən əldə ediləcək ixtisas üzrə bakalavriat təhsil proqramı arasındakı fərqdən asılı olmayaraq, subbakalavrlar bakalavr dərəcəsi üzrə ali təhsil almaq üçün yalnız DİM tərəfindən müəyyən olunmuş ümumi qaydada ali məktəblərin birinci tədris ilinə qəbul olunur.

3.5 Tyutorlar (akademik məsləhətçi) tərəfindən kreditlərin tanınması və ekvalentliyinin müəyyən edilməsi üçün tələbənin transkripti, universitet rəhbərliyi tərəfindən təsdiq edilmiş təhsil proqramının və fənlərin təlim nəticələri, fənlərin sillabusları zəruri sənədlər kimi təhlil olunur.

3.6 Fakültə dekanlıqları və şöbələr tərəfindən kreditlərin sayını, fənlərin məzmununun uyğunluğunu və kreditlərin sayılmasını təsdiq edən rəsmi sənədləşmə həyata keçirilməsi üçün təqdimat verilir.

3.7 Təqdimata akademik transkriptin və ya diploma əlavənin surəti əlavə edilir.

3.8 Təqdimatda tələbənin azad olunduğu fənlərin adı, kreditlərinin sayı, əvəz edilən seçmə və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərin adı və kreditləri qeyd edilir.

## 4. Tələbələrin hüquq və vəzifələri

4.1. Tələbə öz fərdi tədris planını tərtib edərkən, bu Qaydalarla tanış olmalı və buradakı

tələblərə ciddi riayət etməlidir.

4.2. Tələbə bir ixtisasdan digərinə və ya başaq ali təhsil müəssisəsindən köçürüldükdə, bərpa olunduqda və təkrar ali təhsil almaq üçün qəbul olunduqda əvvəlki təhsilinin və kreditlərinin tanınması üçün fakültə dekanlığına (şöbələrə) müraciət edə bilər;

4.3. Tələbə əvvəlki təhsilinin və kreditlərinin tanınması üçün təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri (saatları) və qiymətləri (rəqəm və (və ya) hərflərlə) özündə əks etdirən (xaricdə təhsil alanlar üçün mövcud qaydada leqallaşdırılmış və Azərbaycan dilinə tərcümə olunmuş) akademik transkripti fakültə dekanlığına (şöbələrə) təqdim etməlidir;

4.4. Təhsil alan əvvəl aldığı ixtisasın təhsil proqramında öyrənilmiş fənlərin məzmunu, yeni almaq istədiyi əlavə və ya köçürüldüyü ixtisasın təhsil proqramına daxil olan hər hansı fənnin məzmununa uyğun olduqda, həmçinin fərdi tədris planında seçmə fənn və ali məktəb tərəfindən müəyyən edilən blokları üzrə nəzərdə tutulan fənlərə aid kreditlər və fənnin məzmunu uyğun gəldikdə tədris məşğələlərindən və attestasiyadan azad edilməkdən imtina edə və dərslərdə iştirak edərək yenidən attetasiyadan keçə bilər.

4.5. Tələbənin fərdi tədris planı üzrə kreditlərinin sayı 30 olduğu üçün əsas təhsil haqqını həmin 30 kreditə uyğun ödədiyinə görə azad olunduğu kreditlər 30 kreditdən çıxılır və götürdüyü kreditlər üzərinə əlavə olunur. Bu zaman tələbənin kreditlərinin cəminin bir qayda olaraq 40-dan artıq olmasına yol verilmir. Bu halda tələbə alt qrup üçün təhsil haqqını 30 kreditdən artıq hissəsinə uyğun ödəməlidir.

4.6. Əgər tələbə semestrdə heç bir fəndən azad edilmirsə o halda götürdüyü kreditlərin təhsil haqqını tam şəkildə ödəməlidir.

4.7. Tələbə fənnin (fənlərin) məşğələlərindən və attestasiyadan azad edildiyinə görə fərdi tədris planında nəzərdə tutulan kreditlərin cəmi ilə götürdüyü əlavə kreditlərin cəmi 30 və ya daha az olarsa cari semestrə aid əsas təhsil haqqını tam şəkildə ödədiyi halda alt qrupun ödənişindən azad edilir.